*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 352-356*

https://doi.org/10.62837/2025.6.352

**ŞAKİR CƏFƏROV,**
**filologiya üzrə fəlsəfə doktoru**
**BDU-nun doktorantı**
**shakird.jafarov50@gmail.com**

# MİR CƏLALI N NƏZƏRİ FİKİRIƏRİNƏ ELMİ MÜNASİBƏT FAKTLARI

## XÜLASƏ

Mir Cəlalın yaradıcılığından məlum olur ki, Mir Cəlalın əsərlərində ictimai-siyasi mövzular ideologiyadan qat-qat çox tarixi proseslərin təqdiminə yönləndirilmişdir. Yazıçı tarixi-siyasi mövzuda qələmə aldığı əsərlərində ideoloji prinsipləri deyil, gerçək həyatı və sıravi insanın taleyini əks etdirməyi ön planda qələmə almışdır. Beləbir bir vaxtda Azərbaycanda sovet hökumətinin qurulmasına həsr olunmuş «Bir gəncin manifesti» povestində (1940) sosialist məfkurəsi zahiri bir fondan başqa bir şey deyildir desək, heç də yanılmarıq. «Bir gəncin manifesti» mövcud tarixi şəraitdə yeni ədəbi nəslin və yeni nəsrin bənzərsiz sənət manifesti idi. Bu qiymətli əsəri geniş mənada Azərbaycan insanının mənəvi manifesti adlandırmaq da mümkündür. Mir Cəlal tarixi-siyasi mövzuda yazılmış bu əsərdə Azərbaycan həqiqətlərini və azərbaycanlı sadə insanları böyük məharətlə təsvir edib ümumiləşdirmişdir"(**Akademik İsa Həbibbəyli).**

Bu gün Mir Cəlalın ədəbi - bədii - publisistik yaradıcılığının aktualliq problemləri daha çox diqqəti çəkir. Söz yox ki, indiyə kimi aparılan tədqiqatlarda böyük sənətkarın yaradıcılığının mövzu, ideya və sənətkarlıq xüsusiyyətləri haqqında indi də öz müasirliyini saxlayan dəyərli fikirlər söylənir. Çünki Mir Cəlalın bədii yaradıcılığı polifonik məzmuna və dərin məna potensiallarına malikdir. Müstəqillik dövrünün tədqiqatçıları da onun ədəbi-bədii irsinə çox həvəslə nüfuz edir, yaradıcılığının yeni-yeni sirlərini elmi təhlil müstəvisinə gətirirlər.

**Aşar sözlər:** ədəbi nəslin, dərin məna, polifonik məzmun, ədəbi-bədii irs, informasiya yükü, qeyri-adi.

Apardığımız tədqiqat işindən məlum olur ki, Mir Cəlal bədii yaradıcılıqda əsl istedadını nəsrdə göstərmişdir.Yazıçı sözün əsl mənasında görüb-göstərmə qabiliyyətini öncə hekayə, oçerklərində nümayiş etdirmişdir. Onun birinci kitabı («Sağlam yollarda» (1932) oçerklərdən ibarətdir. Yaradıcılığının sonrakı vaxtlarında o daha çox hekayə, roman janrına üstünlük vermişdir. Yazıçının «Nanənin hünəri», «Badamın ləzzəti», «Dəzgah qızı», «Ər və arvad», «Özündən naxoş», «Elçilər qayıtdı», «Nazik mətləb», «Xarici naxoşluq» və bir çox başqa hekayələri, «Dirilən adam» (1934-1935), «Bir gəncin manifesti» (1939), «Açıq kitab» (1941), «Yaşıdlarım» (1946-1952), «Təzə şəhər» (1948-1950), «Yolumuz hayanadır» (1952-1957) romanları ədəbiyyatımızda önəmli yeri olan qiymətli

əsərlərdir. Deməliyik ki, Mir Cəlalın nəsr yaradıcılığı özünəməxsus ideya-üslubi keyfiyyətləri ilə seçilir...

Tədqiqat işini araşdıqca məlum olur ki, Mir Cəlalın ədəbiyyatşünas- yazıçı olması yarıdıcılığının sənətkarlıq texnikası baxımından mükəmməlliklə qurulmasına öz təsirini göstərmişdir. Xalq deyimlərini, atalar sözlərini məharətlə əsərlərinə g ətirən Mir Cəlalın özünəxas aforizmləri də geniş yayılmışdır; lirik-satirik üslubdan birgə istifadədə yüksək ustalıq nümayiş etdirmişdir. Onun sənətkarlığı elə əsərlərinin adında özünü nümayiş etdirir; adlar özləri xüsusi informasiya yükü daşıyır, həm də çox cəlbedicidir. Mir Cəlalın yaradıcılığının başlıca istiqamətlərindən birini onun elmi və t ənqidi fəaliyyəti təşkil edir. O, yazıçı kimi tanınmasaydı belə, ədəbiyyatşünaslıq fəaliyyəti ilə milli fikir tariximizdə özünəməxsus yeri olardı. Araşdırmaları, əsasən, ədəbiyyat tarixinin nəzəri problemləri istiqamətindədir. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi kimi şair və yazıçılarımızın yaradıcılığı üzərində t ədqiqatlar aparmaqla bərabər, haqqında çox az məlumat olan müəlliflərin tanınmasında xüsusi xidmət göstərmişdir. Müasiri olduğu ədəbi prosesə biganə qalmamış, ayrı-ayrı şair və yazıçıların yaradıcılığı və tamaşaya qoyulan əsərlər haqda məqalələrlə mətbuatda ardıcıl şəkildə çıxış etmişdir. Ədəbiyyatşünaslıq sahəsində ilk məqaləsinin nəzəri mahiyyətdə olması yazıçının maraq dairəsini müəyyənləşdirən amil kimi elmi tədqiqatlarında sona qədər öz izini yaşadır **(1. səh.125-130).**

Mir Cəlal orta əsrlər poeziyasında qeyri-adi sənət inciləri yaratmış Məhəmməd Füzulinin şeir və s ənət haqda görüşlərinə t ədqiqatında ayrıca yer ayırmaqla ədəbiyyat nəzəriyyəsi – poetika baxımından qələmə almışdır. Füzuli yaradıcılığını janr, dil-üslub sənətkarlığı istiqamətində d ə əhatəli tədqiq edib araşdırmaqla M.Cəlal təkcə Füzuli poetikasının rəngarəngliyi, mükəmməlliyi ideyasını formalaşdırmamış, eyni zamanda ədəbiyyatşünaslığımızın nəzəri bazasının zənginləşməsi istiqamətində faydalı fəaliyyət göstərmişdir.

Yazıçının klassik Şərq poetikasına, bəlağət elminə yaxın bələdliyi sonrakı tədqiqatlarında da aydın müşahidə olunmaqdadır. O dövr üçün xəlqiliyi özünü qorumanın əsas vasitəsi hesab edən və onu ustalıqla milli mənafeyə yönəltməyi bacaran Mir Cəlal 1941-ci ildə M.C.Cəfərovun redaktorluğu ilə «Xalqın ürək sözü» kitabçasını çap etdirmişdir. «Elmsiz sözün qayətdə bietibar» olduğunu klassik irsdən əxz edən tədqiqatçı ədəbiyyat nəzəriyyəsinin prinsiplərini sistemləşdirib tədris etmək üçün 1953-cü ildə ədəbiyyatşünaslıq kursu üzrə proqram hazırlamışdır. Bu proqram onun sonralar Pənah Xəlilovla birgə yazdığ "Ədəbiyyatşünaslığın əsasları» kitabı üçün layihə rolunu oynamışdır **( 3. 156 s.).**

1943-1944-cü illərdə Nizami adına Ədəbiyyat və Dil İnstitutunun nəşr etdirdiyi iki cildlik «Müxtəsər Azərbaycan Ədəbiyyatı»nın əsas müəlliflərindən biri də Mir Cəlaldır. Həmçinin 1956-cı ildə Məmməd Arif, Məmməd Cəfər və Mir Cəlalın birgə müəllifliyi ilə «Xalq şairi Səməd Vurğun» adlı iri həcmli kitab çap

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 352-356*

olunmuşdur. 1966-cı ildə Firudin Hüseynovla birlikdə yazdıqları «XX əsr Azərbaycan ədəbiyyatı» dərsliyi dövrün əsas simalarının ədəbi portretini əks etdirməklə bu gün də öz əhəmiyyətini itirməmişdir. Sonralar (1974, 1982) dərsliyin təkrar nəşrləri çap olunmuş və ilk nəşrdə çıxarılan hissələr yenidən əlavə olunmuşdur (1982-ci il, yenidən işlənmiş üçüncü nəşri ).

Mir Cəlalın müəllifi olduğu kitablar içərisində Pənah Xəlilovla birgə yazdıqları « Ədəbiyyatşünaslığın əsasları» (1972) dərsliyi nəzəri əhəmiyyət və faydalılığı baxımından xüsusilə seçilir (1988-ci ildə d ərsliyin yenidən işlənmiş v ə t əkmilləşdirilmiş variantı t əkrar çap olunmuşdur). Son illər ədəbiyyatşünaslığa və ədəbiyyat nəzəriyyəsinə aid hər nə q ədər yeni kitablar çap olunsa da, heç biri bu dərsliyi əvəz edə bilmir. Müasir mərhələdə yazıldığı dövrün müəyyən qədər ab-havasını özündə əks etdirsə də, yenə ali məktəblərin əsas dərsliyi, tədqiqatçıların etibarlı elmi qaynağı olaraq qalır ( **3. 156 səh.).**

Mir Cəlalın ədəbiyyatşünas kimi ədəbi irsinə daxil olan mühüm əsərlərindən biri də «Klassiklər və müasirlər» (1973) kitabıdır. Burada yazıçı klassiklər və öz müasirləri haqqında müxtəlif mətbu orqanlarda çap olunmuş m əqalələri üzərində yenidən işləyərək onları bir mövzu ətrafında cəm etmiş v ə ədəbiyyatımızın Nizami zirvəsindən başlayaraq gənc yazarlara qədər keçdiyi yolun ümumi mənzərəsini əks etdirməklə, bir araya gətirdiyi sənətkarlar vasitəsilə müqayisə assosiasiyası yaratmışdır. Mir Cəlal ədəbi məktəbləri və c ərəyanları ciddi araşdırmasının nəticəsidir ki, Pənah Xəlilovla birgə yazdıqları «Ədəbiyyatşünaslığın əsasları» dərsliyində ilk dəfə olaraq Azərbaycan sentimentalizmindən bəhs edilmiş və onun qabaqcıl təmsilçiləri göstərilmişdir Mir Cəlal elmi-nəzəri irsinin əhatəliliyi və özünün milli məfkurəsinin aydınlığı ilə f ərqlənir. Elmi fəaliyyətində araşdırdığı mövzular və gəldiyi nəticələr ideoloji yasaqlardan kənara çıxmaları ilə yazıçıya ç ətinlik yaratsa belə, o klassik irsimizin, ədəbi məktəblərin öyrənilməsi işində öz elmi mövqeyindən dönməmişdir. Mir Cəlal ədəbi-nəzəri görüşləri günümüzün ədəbiyyatşünaslığı baxımından aktual olan bir çox problemlərin araşdırılmasında mühüm əhəmiyyət kəsb edir və bu gün də düzgün elmi istiqamətin seçilməsində mühüm rol oynayır. Mir Cəlalın qələmində milli şüura yeridilən işğalçılığa barışmaz münasibət ideyası vətən övladını yeni bir mücadilə meydanı açmağa, "ağ ayı" ilə mübarizəyə səfərbər edirdi. "Bir gəncin manifesti" bir də bitib-tükənməyən bu mübarizə pafosu ilə müasirdir".

Mir Cəlalın romanları arasında ən çox mübahisələrə səbəb olanı, büsbütün zidd mövqelərdən qiymətləndiriləni "Açıq kitab" olmuşdur. Romanın yazıldığı zamanda onun haqqında ən uzaqgörən və obyektiv fikri M.C.Cəfərov söyləmişdir. Tədqiqatda oxuyuruq: "... 1945-ci ildə yazdığı "Açıq kitab" adlı məqaləsində M.C.Cəfərovun romanı "həqiqətin üzünə dik baxan" əsərlər sırasında görməsi və bunu xüsusi ahənglə qeyd etməsi görkəmli tənqidçinin zamanına görə açıqlaya bilmədiyi çox mətləblərdən xəbər verir" **(M.C.Cəfərov).**

Azərbaycan mədəniyyəti tarixində özünəməxsus yeri olan yazıçı Mir Cəlal elmi-nəzəri irsinin əhatəliliyi və özünün milli məfkurəsinin aydınlığı ilə f ərqlənir. Elmi fəaliyyətində araşdırdığı mövzular və gəldiyi nəticələr ideoloji yasaqlardan kənara çıxmaları ilə yazıçıya çətinlik yaratsa belə, o klassik irsimizin, ədəbi məktəblərin öyrənilməsi işində öz elmi mövqeyindən dönməmişdir. Mir Cəlalın ədəbi-nəzəri görüşləri günümüzün ədəbiyyatşünaslığı baxımından aktual olan bir çox problemlərin araşdırılmasında mühüm əhəmiyyət kəsb edir və hal-hazırda da düzgün elmi istiqamətin seçilməsində mühüm rol oynayır.

**İstifadə olunmuş ədəbiyyat**

1. A. Zamanov. Realist sənətkar. «Azərbaycan» jurnalı, № 12, 1953, s.125
2. Mir Cəlal. Füzuli sənətkarlığı. III nəşr, Bakı, "Kaşqari", 2007, səh.2 - 9
3. Mir Cəlal, Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı, "Maarif", 1988.,156 s.
4. Mir Cəlal, Firudin Hüseynov. XX əsr Azərbaycan ədabiyyatı. Bakı, 1982, s.176
5. Mir Cəlal. Azsrbaycanda ədəbi məktəblər. Bakı, 2004, s.133.
6. Mır Cəlal. Klassiklər və müasirlər. Bakı, 1973, s.178.
7. Bəkir Nəbiyev. Mir Cəlalın ədəbi-nəzəri görüşləri. "Azərbaycan müəllimi" qəzeti, 28 may 2008, səh.4

**REZЮME**

**SHAKIR JAFAROV**

**ФАКТЫ О НАУЧНОМ ОТНОШЕНИИ К ТЕОРЕТИЧЕСКИМ ИДЕЯМ МИР ДЖАЛАЛА**

Из творчества Мир-Джалала становится ясно, что общественно-политические темы в его произведениях были направлены скорее на отражение исторических процессов, чем на идеологию. В своих историко-политических произведениях писатель делал акцент не на идеологических принципах, а на отражении реальной жизни и судьбы простого человека. В то время не ошибёмся, если скажем, что в повести «Манифест молодого человека» (1940), посвящённой установлению Советской власти в Азербайджане, социалистическая идеология – не более чем внешний фон. «Манифест молодого человека» – уникальный художественный манифест нового литературного поколения и новой прозы в современных исторических условиях. Это ценное произведение можно назвать и духовным манифестом азербайджанского народа в широком смысле. В этом произведении, написанном на историко-политическую тему, Мир Джалал мастерски описал и обобщил реалии Азербайджана и жизни азербайджанского народа» (академик Иса Габиббейли).

Сегодня актуальные вопросы литературного, художественного и публицистического творчества Мир Джалала привлекают всё большее внимание. Несомненно, что проведённые к настоящему времени исследования

высказали ценные мысли о темах, идеях и художественных особенностях творчества великого художника, которые и сегодня сохраняют свою современность. Ведь художественное творчество Мир Джалала обладает полифоническим содержанием и глубоким смысловым потенциалом. Исследователи периода независимости также жадно вникают в его литературно-художественное наследие, выводя новые тайны его творчества на уровень научного анализа.

**Ключевые слова:** литературное поколение, глубокий смысл, полифоническое содержание, литературно-художественное наследие, информационная нагрузка, необычность.

## SUMMARY

**JAFAROV SHAKIR**

## FACTS ABOUT THE SCIENTIFIC ATTITUDE TOWARDS MIR JALAL'S THEORETICAL IDEAS

It is clear from Mir Jalal's work that socio-political themes in Mir Jalal's works were directed towards the presentation of historical processes much more than ideology. In his works on historical-political themes, the writer focused not on ideological principles, but on reflecting real life and the fate of an ordinary person. At such a time, we would not be mistaken if we say that in the story "Manifesto of a Young Man" (1940), dedicated to the establishment of the Soviet government in Azerbaijan, the socialist ideology is nothing more than an external background.

"Manifesto of a Young Man" was a unique artistic manifesto of a new literary generation and new prose in the current historical conditions. This valuable work can also be called a spiritual manifesto of the Azerbaijani people in a broad sense. In this work written on a historical-political topic, Mir Jalal skillfully described and summarized the realities of Azerbaijan and the Azerbaijani common people" (Academician Isa Habibbeyli). Today, the topical issues of Mir Jalal's literary, artistic and journalistic creativity attract more attention. It goes without saying that the research conducted so far has expressed valuable ideas about the themes, ideas and artistic features of the great artist's creativity that still retain their modernity. Because Mir Jalal's artistic creativity has a polyphonic content and deep meaning potential. Researchers of the period of independence also eagerly penetrate his literary and artistic heritage, bringing new secrets of his creativity to the level of scientific

**Keywords:** iterary generation, deep meaning, polyphonic content, literary and artistic heritage, informational load, unusual

**Rəyçi: Qərənfil Dünyamin qızı (Quliyeva),**
**filologiya elmlər doktoru, dosent**
**Əməkdar jurnalist**